# ORTA ƏSR ŞƏHƏRLƏRİNDƏ İQTİSADİYYATIN TƏŞKİLİ

Y.H.GÖZƏLOVA

Məqalənin adı oxucuda ilк baxışda bir qədər çaşqınlıq doğura bilər: söhbət hansı şəhərlərdən gedir, Qərbi Avropa yoxsa Şərq şəhərlərindən? Əslində məqalənin adındaкı bu «qüsur» tarixi inкişafın müxtəlif sivilizasiyalar üçün ən müxtəlif variantlarda baş verməsinə baxmayaraq, ümumi qanunauyğunluqlara tabe olduğu fiкrində bizim israrlı olmağımızla bağlıdır. Bəli, orta əsr şəhərlərinin mənşəyi müxtəlifdir; Avropada və Şərqdə şəhərlərin feodal tipli şəhərlərə çevrilmə yolları xeyli fərqlidir. Şərqdə geniş yayılmış bəzi təsisatlar Avropaya çox-çox sonralar gəlib çıxmışdır; Avropa şəhərlərində mövcud olmuş bir çox sosial və siyasi təsisatları isə Şərqdə xeyli «axtarmaq» lazım gəlir və s. Laкin insan cəmiyyətinin mühüm sahəsi olan iqtisadiyyat istər Şərq, istər Qərbi Avropa üçün elə ümumi cəhətlərə maliкdir кi, digər fərqliliкlər onun qarşısında iкinci dərəcəli əhəmiyyət кəsb edir (K.Marкsın dahi iqtisadçı olmasını az adam inкar edə bilər!).

Bəşəriyyət öz tarixinin elə ilк dövründən nə yolla olursa-olsun sağ qalmaq, fiziкi cəhətdən mövcud olmaq naminə təbiətlə, digər insanlarla, daha sonra sosial təsisatlarla, siyasi maneələrlə mübarizə aparmalı olmuş, inкişafın müəyyən mərhələsində daha yaxşı yaşayış və nəhayət, sərvət uğrunda savaşmışdır. Misir, Şumer, Babil, Yunan, Roma sivilizasiyalarında (həmçinin periferiyalarda) maddi sərvətlə yanaşı, mənəvinin, ruhinin də əhəmiyyəti meydana çıxmışdır: indi qədim misirlinin astrologiyaya, şumerlinin elmə, babillinin memarlığa, yunanın incəsənətə, romalının siyasətə olan marağını heç bir maddi maraq öldürə bilməzdi.

Amma bəşəriyyətin inкişafının elə bir mərhələsi gəldi кi, mənəvi maraq yenə arxa plana кeçdi və insan ancaq fiziкi mövcudluğu naminə yaşamağa başladı: IV-VII əsrlərdə bütün Avropanı «barbar» yürüşləri bürüdü, iqlimin кəsкin şəкildə soyuması almanları, hunları, avarları, slavyanları böyüк bir hərəкətə gətirdi («Xalqların böyüк кöçü»), antiк mədəniyyət süqut etdi, «Əbədi şəhər» dağıdıldı, maddi yenə üstün gəldi. Aqrar кortəbiiliк şəhəri işğal etdi.

Beləliкlə, orta əsrlərin ilк dövründə yaşananlar həm Avropa, həm Asiya üçün eyni dərəcədə əhəmiyyət кəsb etdi. Şəhər həyatının yenidən dirçəlişi və onun mütərəqqi cəmiyyətin (hər halda ilк dövrlərdə feodalizmi belə adlandırmaq olar) tərкib hissəsinə çev-

rilməsi ümumbəşəri oldu.

Orta əsrlərin ilk yüzilliklərində Qərbi Avropada natural təsərrüfat, demək oalr ki, tam hökmran idi, məhsul mübadiləsi primitiv səciyyə daşıyırdı. Əvvəlki Roma şəhərlərində iqtisadiyyatın aqrarlaşması səbəbindən tənəzzül hökm sürürdü. Şəhərlər Avropanın yalnız romanlaşmış vilayətlərində (Bizansda, İtaliyada, Cənubi Qalliyada, vestqot İspaniyasında) qalmışdı. Qeyd etmək lazımdır ki, şəhərlərin tənəzzülü barbar talanlarına məruz qalmayan Suriya və Misirdə də müşahidə olunurdu (bu barədə bax: 5; 1, s.20-25 və s.). Aralıq dənizi sivilizasiyasının periferiyalarında şəhərlərin tənəzzülü kəskin hiss olunmasa da, Avropanın ticarət balansının passivləşməsi Şərq şəhərlərinə təsir göstərməyə bilməzdi. Lakin ərəb işğalı ərəfəsində Yaxın Şərqdə, Cənubi Qafqazda, İranda Avropadan fərqli olaraq, şəhər həyatı artıq feodal xarakteri almışdı. Bizans və Sasani imperiyaları ərazisində onlarla sənətkarlıq mərkəzi, ticarət məntəqələri, hətta yarmarkalar fəaliyyət göstərirdi; bunların bir çoxu antik şəhər olsa da, yeniləri də meydana çıxmaqda idi.

Ərəb fəthlərinin Şərq üçün nəticələrini səciyyələndirmək asan deyil, bu da ilk növbədə VII-VIII əsr məlumatlarındakı ziddiyyətlərlə bağlıdır. Lakin işğal olunmuş ölkələrin oturaq mədəniyyətinin ərəblərə yad olması haqqında avropasentrist tarixçilərin fikirləri ilə razılaşmaq mümkün deyil. Mütərəqqi tarixçilərin böyük əksəriyyəti belə bir fikirdə yekdildir ki, digər köçəri işğalçılardan fərqli olaraq, ərəblər məhsuldar qüvvələri məhv etmirdilər, əksinə, təsərrüfatın mövcud sistemindən istifadə edərək iqtisadiyyatın yüksəlişinə çalışırdılar. Tarixçilər arasında ilk dəfə K.Kaen müsəlman şəhərini antik polisin tamhüquqlu varisi kimi qəbul etmiş (bu barədə bax: 1, s.16-17,45), sonrakı tədqiqatlar bunu təsdiqləmişdir. Doğrudan da, Bizans şəhərləri ilə müsəlman şəhəri arasında kəskin fərq hiss olunmur; hətta antik sivilizasiya ilə birbaşa bağlı olmayan Qafqaz və İran şəhərlərində də *feodal* şəhərinin təşəkkülü prosesi Xilafət sistemində, heç bir fasilə olmadan, ardıcıl davam edir.

*Feodal* şəhəri üçün iqtisadi fəaliyyət zəruri idi və bu səbəbdən, şəhərin sonrakı inkişafı, onun ölkə həyatında və beynəlxalq əlaqələrdə yeri iqtisadiyyatın təşkilindən də çox asılı idi. VII-VIII əsrlərdə Qərbi Avropada klassik mənada f*eodal* şəhəri hələ təşəkkül tapmadığından, əvvəlcə müsəlman şəhərlərində iqtisadiyyatın təşkili və ümumilikdə şəhərin iqtisadi strukturu məsələsini araşdıraq.

Yuxarıda dediyimiz kimi, ərəb fəthləri yaranmaqda olan *feodal* şəhərlərinin sosial-iqtisadi strukturunu dağıtmadı, sadəcə olaraq, onsuz da baş verən dəyişiklikləri üzə çıxardı. Müsəlman şəhərlərinin tədqiqatçısı O.Q.Bolşakov VII və IX əsrlərdə müsəlman şəhərlərində iqtisadi yüksəlişin dərəcəsini şəhərlərin sayını müqayisə etməklə müəyyənləşdirməyə çalışır (bax: 1, s.47-66), halbuki əsərinin başqa bir bölməsində o, kəmiyyət göstəricilərinə şübhə ilə yanaşaraq onların keyfiyyət göstəriciləri ilə nə dərəcədə uyğunlaşma-

sının vacibliyini irəli sürür (1, s.263). O.Q.Bolşakov yazır: «Yaxın Şərqdə davamlı müharibələrin olmadığı VIII-X əsrin əvvəllərini əhatə edən dövr, heç şübhəsiz, Qərbi Avropa ilə müqayisədə ölçüyəgəlməz dərəcədə yüksək olan şəhər həyatının yüksəlişinə imkan verdi. Lakin bu, yeni pilləyə yüksəliş deyildi, ərəb işğalının dağıtmış olduğu səviyyənin sadəcə bərpası idi» (1, s.66). Bu fikirlə birmənalı şəklidə razılaşmaq olmur. Əvvəla, O.Q.Bolşakov özü etiraf edir ki, ərəb işğalı ərəfəsində Bizansın bəzi vilayətlərində şəhərlərin sayı 2 dəfə azalmış, şəhərlərin deqradasiyası və yoxa çıxması (!) prosesi VII-VIII əsrlərdə yüksək nöqtəsinə çatmışdı (1, s.19, 20, 22-25). Antioxiya, Tripoli, Beyrut, Sidon kimi şəhərlər acınacaqlı vəziyyətdə idilər (1, s.22-23).

Digər tərəfdən, biz qeyd etməyi vacib bilirik ki, Xilafət yalnız «köhnə»nin bərpası ilə kifayətlənmirdi; konkret olaraq şəhərlərlə bağlı deyə bilərik ki, elə ilk illərdən başlayaraq yeni şəhər-düşərgələr salınırdı, ticarət üçün şərait yaradılırdı, effektli olmayan inzibati-vergi aparatı təkmilləşdirilirdi. Hicri 77-ci ildə (695/96-cı il) xəlifə Əbd əl-Məlik (685-705) tərəfindən həyata keçirilən pul islahatı isə böyük əhəmiyyətli hadisə olub, şəhərlərin iqtisadi inkişafı, onların beynəlxalq ticarətdə fəal iştirakı üçün şərait yaratmışdı. Beynəlxalq ticarətin iqtisadi həyatda mühüm amilə çevrildiyi Xilafət şəhərlərində tikinti-quruculuq işləri – yollar, körpülər salınması, məscidlər, mehmanxanalar, hamamlar, bazarlar tikilməsi, su arxları, kanalizasiya xətləri çəkilməsi faktları həm yazılı mənbələr, həm də arxeeoloji tədqiqatlarla təsdiqlənir.

Bütün bunları qeyd etməkdə məqsədimiz Ön Asiya şəhərlərində feodalizmin inkişafı prosesini ərəb işğalları ilə əlaqələndirmək deyil; adı çəkilən bölgələrdə *feodal* şəhərinin təşəkkülü prosesi hələ Xilafətdən xeyli əvvəl başlamışdı. Lakin ədalət naminə demək lazımdır ki, ərəb işğalı və Xilafətin yaranması bu prosesi dayandırmadı (ona görə də O.Q.Bolşakovun «ərəb işğalı nəticəsində dağılmış əvvəlki səviyyənin bərpası» fikri obyektiv sayıla bilməz) və onun yeni mərhələyə qədəm qoymasına imkan verdi.

Şəhərlərdə iqtisadiyyatın təşkili prosesində vacib məsələlərdən biri məhsulların keyfiyyəti və qiymətlər üzərində nəzarət, başqa sözlə desək, istehsalın və ticarətin nizamlanması idi. VIII-XI əsrlərdə müsəlman şəhərlərində bu işi yerinə yetirən, çox güman ki, *mühtəsib* olmuşdur. Əl-Vasitinin məlumatına görə, Abbasilərə qədər ticarətə nəzarət *sahib əmr bi-l-məruf və nəhy ani-l-munkər* çağrılan məmurun əlində idi (10, s.114-115), mühtəsib isə daha çox əxlaq işlərinə nəzarətlə məşğul olurdu (12, II, s.269). Tədricən bu sonuncunun məşğuliyyət dairəsi genişlənərək, Abbasilər dövründə şəhərin iqtisadiyyatına nəzarəti də əhatə edir. Mühtəsiblər zərbxanaların işinə, ölçü və çəkilərin düzgünlüyünə, toxunan parçaların, geyimlərin, xalçaların keyfiyyətinə nəzarət etməli, şəhərə gələn karvanların, gəmilərin yüklərinin boşaldılmasını yoxlamalı, şəhəri ərzaqla vaxtlı-vaxtında təmin etməli idi (9, IV (1), s.146; 13, I, s.463 və s.). A.Mets bu məmurları «sənaye müfəttişi» adlan-

dırır (6, s.225, 284, 340). Maraqlıdır ki, mühtəsib vəzifəsinə çox vaxt hüquqşünasları təyin edirdilər (4,VIII, s.165).

Mühtəsibin funksiyaları geniş olduğundan, *arif* adlandırılan şəxslər ona kömək edirdilər; şəhərdə mövcud olan ən məşhur peşələrin nümayəndələri özlərinə təmsilçi – *arif* seçirdilər və *arif* (cəm şəkl.– *urafa*) alıcıların və satıcıların maraqlarını qoruyurdu. Lakin onun funksiyaları və hakimiyyət dərəcəsi mənbələrdə konkretləşdirilmir. Biz arifin fəaliyyətinin və ümumiyyətlə, bu sistemin Avropa sex təşkilatı ilə eyniliyini də qəti deyə bilmərik, çünki əl-Məqrizinin dolayı məlumatlarından bəlli olur ki, arif hakim dairələr tərəfindən təyin olunurdu və istənilən vaxt müvafiq peşə nümayəndələrinin razılığı olmadan da (Qərbi Avropa ölkələrindən fərqli olaraq) vəzifəsindən uzaqlaşdırıla bilərdi (11, s.18-19). Görünür, arif də həmkarlarının maraqlarını qorumaq üçün heç bir səlahiyyətə malik deyildi və funksiyaları ticarət işlərinə nəzarətlə məhdudlaşırdı. Amma hətta bu halda belə, Xilafətdə şəhər iqtisadiyyatının inkişafı üçün dövrünə görə xeyli imkanların olmasını inkar etmək olmaz. Başqa sözlə desək, fransız, alman, italyan sexləri və gildiyalarının kollektiv şəkildə gördüyü işi mərkəzləşdirilmiş dövlət aparatı və şəriət həyata keçirirdi; şəriətin yaradıcıları isə ticarətlə sıx bağlı olan şəhərlilər idi!

IX-X əsrlərdə Qərbi Avropada təşəkkül tapmağa başlayan şəhərlərin də iqtisadiyyatı tədricən sistem şəklinə düşür. İndi əmtəə münasibətləri şəhərlərdə cəmlənir və kəndli təsərrüfatı da bu münasibətlərə cəlb edilir; Avropada natural təsərrüfatdan əmtəə təsərrüfatına keçid baş verir. Lakin Qərbi Avropa şəhərləri bu keçid prosesini hələ bir neçə yüzil yaşamalı oldular; çox məhdud bazar və xırda istehsal şəraitində iqtisadiyyatın sürətli yüksəlişi baş verə bilməzdi. Bu səbəbdən, şəhərlərdə iqtisadiyyatı və həmçinin sosial münasibətləri tənzimləmək üçün xüsusi təşkilatlara ehtiyac var idi. Sexlərin və gildiyaların yaranması da natural təsərrüfatın və siyasi pərakəndəliyin hələ kifayət qədər güclü mövqedə olduğu dövrdə elə bu nizamlayıcı və təşkiledici funksiyaları yerinə yetirmək ehtiyacı ilə bağlı olmuşdur.

Sənətin müəyyən sahəsi üzərində inhisar qurmaq, sənətkarlıq məmulatlarının istehsalı və istehlakı üzərində nəzarət yaratmaq sexin əsas iqtisadi funksiyaları idi. İstehsal prosesini nizamlamaq üçün sex xüsusi məsul adamlar seçirdi; sex idarəçiliyinin ali orqanı – onun üzvlərinin ümumi yığıncağı idi. Sex orqanları ilk növbədə xammalın keyfiyyətinin qayğısına qalmalı idi; alman və fransız sexlərinin bütün statutlarında bu məqsədlə nəzərdə tutulan maddələr var (8, s.190). İstehsal olunan məmulatların satışını nizamlayan qaydalar da çox geniş yayılmışdı.

Orta əsr Avropa sexləri üçün vasitəçilərlə (alverçilərlə) mübarizəyə yönəldilmiş qaydalar da çox səciyyəvidir. Malları təkrar satmaq məqsədilə almaq qadağan olunurdu. Eyni qaydada «malın ədalətli qiyməti» prinsipi də geniş yayılmışdı. Bu qaydaya görə, malın qiyməti istehsal xərclərinin dəyərinə uyğun olmaqla yanaşı,

istehsalçının sosial vəziyyətini nəzərə almaqla, onun müəyyən mənfəətinin olmasını təmin etməli idi (bax: 8, s.192). Əslində XIII-XIV əsrlərdə avropalı sənətkar qiymətlərin nizamlanmasında maraqlı idi, bu, ona sabit bazar təminatı verirdi.

Verilən statutlar əsasında fransız, alman, italyan və flamand sexlərinin XIII-XIV əsrlərdə iqtisadi funksiyalarını ümumiləşdirməyə çalışsaq, aşağıdakı maddələri irəli çəkə bilərik:

- Statutlar işçi qüvvəsinin sayını dəqiq müəyyənləşdirirdi;
- Emalatxanalarda istehsal vasitələrinin sayı məhdudlaşdırılırdı;
- Emalatxanada emal olunması nəzərdə tutulan xammalın miqdarı da müəyyən olunurdu;
- İllik məhsulun həcmi dəqiq müəyyənləşdirilirdi və yalnız bu həcmdə bazara çıxarılırdı;
- Statutlar ustalara bir-birilərinin usta köməkçilərini və həmçinin sifarişçilərini ələ keçirməyi də qadağan edirdi;
- Sexin bütün üzvlərinin iqtisadi bərabərliyini saxlamaq üçün eyni adama bir neçə sənət ilə məşğul olmağa icazə verilmirdi.

XIII əsrdən başlayaraq Flandriyanın iri şəhərlərində, daha sonra Avropanın digər bölgələrində topdansatış ticarətlə məşğul olan tacirlərin gildiyaları meydana çıxır. Orta əsr şəhərinin iqtisadiyyatı üçün gildiyalar da özünəməxsus təşkilatçı qüvvə sayıla bilər; çünki şəhər iqtisadiyyatı təkcə daxili bazara dayaqlanmırdı, xarici ticarət də Avropa iqtisadiyyatı üçün tədricən mühüm mənbəyə çevrilir. Şərq malları, həmçinin yerli mahudun alınması və onların Avropa şəhərlərinə gətirilməsi böyük məbləğdə vəsait tələb etdiyindən, tacir gildiyaları zəruri olmuşdu. Amma bu gildiyalara daxil olan tacirlər topdansatış ticarətlə yanaşı, pərakəndə satışla da məşğul olurdular; bunun da əsas səbəbi bazarın kifayət qədər inkişaf etməməsi, ticarətdə ixtisaslaşmanın olmaması idi.

Avropa şəhərlərinin təşəkkül etdiyi ilk əsrlərdə onun iqtisadi həyatının tənzimləyicisi dövlət orqanları deyil, sexlər və gildiyalar, həmçinin kommuna hərəkatının qalib gəldiyi ölkələrdə özünüidarəçilik orqanları idi. Bu sonuncular əllərində daha çox siyasi funksiyaları cəmləsələr də, zaman keçdikcə iqtisadi fəaliyyət də xeyli əhəmiyyət kəsb edir. Şəhər şurası, mer (burqomistr), məhkəmə kollegiyası (şeffen, eşeven, skabin) yalnız patrisilər içərisindən seçilirdi, patrisilər isə ticarət-sənaye fəaliyyəti ilə sıx bağlı olan təbəqə idi. Bəzi şəhərlərdə patrisilər demək olar ki, bütün iqtisadiyyatı nəzarətləri altına keçirmişdilər. Məs., Kölndə və Vestfaliya şəhərlərində mahud alveri sexi tamamilə patrisilərdən ibarət olduğundan, bu sex mahudun emalında və ondan paltar biçimində iştirak edən bütün sənətkarları iqtisadi cəhətdən özünə tabe etmişdi (8, s.238-239). Eyni halı biz Flandriya və Brabant şəhərlərindəki ipək toxuculuğu sənayesində də görürük (bu barədə daha ətraflı bax: 7, IV).

Əmtəə-pul münasibətləri inkişaf etdikcə patrisilərin iqtisadi fəaliyyət sahələri də genişlənir. Ticarətdən gələn gəlir hesabına iri həcmdə pul vəsaiti əlində toplayan patrisilər torpaq sahələri alır, feodallara – kraldan tutmuş cəngavərlərə qədər, hətta kilsə təşki-

latlarına da borc verir, yaşayış evləri və ticarət köşklərini icarəyə verirdi. Şəhər iqtisadiyyatının təşkili və inkişafına patrisilərin nəzarəti o qədər güclənir ki, Flandriyada patrisilər hətta dövlət gəlirlərini və şəhər aksizindən gələn gəlirləri də iltizama götürürlər (8, s.244). Alman şəhərlərində də patrisilər geniş istehlak malları – şərab, duz, un və s. üzərindəki şəhər aksizini iltizama götürməyi mənfəətli sayırdılar.

Qeyd etdiyimiz bu proses müəyyən mərhələsində şəhərin iqtisadi və eləcə də sosial inkişafı üçün artıq təkanverici qüvvə deyil, əksinə maneəyə çevrilir. XIV əsrdə Flandriya şəhərlərində tacirlərin nümayəndələri – eşevenlər şəhər şurasını yaradır; onlar vergi toplayır, ticarət və sənət üzərində nəzarətçilər (müqayisə et: mühtəçiblər və ariflər) təyin edirdilər, ən müxtəlif sərəncamların təsdiqi hüququnu əllərində cəmləyirdilər. Təhlükəli cəhət onda idi ki, eşeven vəzifəsi faktiki *meliores et utiliores ad opus comiti et oppidi* – «qraf və şəhər üçün ən yaxşı və münasib» olan məhdud sayda ailələrin əlinə düşürdü. Gentdə 39-lar şurası hətta eşeven vəzifəsini *irsi* etmişdi (8, s.251).

Belə bir hakimiyyət artıq tərəqqi üçün münasib ola bilməzdi: eşevenlərin içərisində qocalar və xəstələr çoxluq təşkil edirdi; patrisi rejimi bir çox şəhərlərdə özbaşınalıq simvoluna çevrilmişdi. Aksizlər süni surətdə qaldırıldığından, vergi yükü daha da ağırlaşmışdı, məxariclərin heç bir hesabatı aparılmırdı. Aparıcı klan tərəfindən hakimiyyətdən uzaqlaşdırılmış bir çox varlı adamlar indi müxalifət təşkil edərək hakim rejimə qarşı çıxmağa başlayır. Digər tərəfdən, XIII-XIV əsrlərdə mərkəzləşmənin böyük uğurlar qazandığı Avropada patrisiat mərkəzdənqaçma qüvvəyə çevrilmişdi və kral hakimiyyətini narahat etməyə bilməzdi.

Artıq XIII əsrin sonu – XIV əsrin əvvəllərində Fransada kral hakimiyyəti şəhərlərə verdiyi kommuna xartiyalarını ləğv etməyə başlayır. Eyni proses İngiltərədə də gedir. Bu dəyişikliklər orta əsr şəhərlərində iqtisadiyyatın təşkili işində necə əks olunurdu? Çox maraqlıdır ki. patrisilərin iqtisadi, siyasi mövqeyini kral hakimiyyəti tərəfindən məhdudlaşdırılmasının şəhər iqtisadiyyatına təsiri neqativ olmamışdır və iqtisadiyyatın təşkili işində əvvəlki strukturların yerində yenilərinin (mərkəzi hakimiyyət üçün məqbul) yaranması prosesi ağrılı keçməmişdir. Məsələ burasındadır ki, silki monarxiyanın dayağına çevrilən orta əsr şəhərli təbəqəsinin şəhər iqtisadiyyatını təşkil etmək üçün kifayət qədər bacarığı və təcrübəsi var idi; patrisilər tərəfindən şəhər idarəçiliyindən uzaqlaşdırılmış zəngin adamlar da indi mərkəzə tabe şəhər iqtisadiyyatında iştirak etmək imkanı qazanmışdılar. Digər tərəfdən, bəzi şəhərlərdə (məsələn, Langedok şəhərlərində) oliqarxiya özü xalq kütlələri ilə mübarizədə kral hakimiyyətinin himayəsinə razılıq verirdi (8, s.140-141). Başqa sözlə desək, kralın şəhərdə arxalanacaq və şəhər iqtisadiyyatında təxribatın, özbaşınalığın qarşısını ala biləcək dayağı artıq var idi.

Artıq XIII əsrin sonlarına doğru Fransada kral hakimiyyəti

şəhərlərdə öz nümayəndələrini: balya və prevoları təyin edir. Bu nümayəndələr bir tərəfdən, bələdiyyə orqanlarının nüfuzunu endirir, digər tərəfdən, şəhərdəki iqtisadi, siyasi, məhkəmə hakimiyyətinin mərkəzə tabe olması prosesini nizamlayırdılar. Kral şəhər orqanlarının yerinə öz məmurlarını təyin etmək üçün şəhər inzibati idarəsinin nöqsanlarından və şəhər maliyyəsindəki özbaşınalıqlardan bacarıqla istifadə edirdi.* Mərkəzləşmə üçün böyük əhəmiyyət kəsb edən dövlət maliyyəsi üçün də yeni mənbələrə ehtiyac olduğundan, kral şəhərlərdə iqtisadiyyatın inkişafı və nizamlı təşkilində maraqlı idi: ticarətdən və sənayedən gələn gəlir dövlət maliyyəsi üçün yeni mənbəyə çevrilmişdi.

Beləliklə, XIV-XV əsrlərdə Qərbi Avropada şəhər kommunalarının müstəqil fəaliyyətinə son qoyulması və bu kommunaların ayrı-ayrı orqanlarının kral hakimiyyəti orqanlarına çevrilməsi baş verir. Şəhərin daxili həyatı, o cümlədən onun iqtisadiyyatı mərkəzi hakimiyyətin müdaxilə dairəsinə daxil olur. Şəhərin mütərəqqi elementləri (feodal cəmiyyəti üçün onlar mütərəqqi idi) kral hakimiyyəti ilə ittifaqa girir və bu prosesdə özü də mütərəqqi qüvvə kimi çıxış edir.

XIII-XIV əsrlərdə müsəlman şəhərlərində iqtisadiyyatın təşkilində köklü dəyişikliklər baş vermir; baş verən dəyişikliklər isə yenilik səciyyəsi daşımırdı. Xilafət dövrünün mühtəsibi ilə XIV-XV əsrlərin mühtəsibi arasında əsas fərq sonuncunun səlahiyyət dairəsinin yalnız ticarət-maliyyə işləri ilə məhdudlaşmasında əks olunur (bu barədə bax: 3, s.85-86). Səfəvilərin hakimiyyəti dövründə mühtəsibin vəzifəsi şəhərdəki qiymətlərin təyin edilməsilə məhdudlaşırdı (3, s.86). Bu, mühtəsibin dövlət məmuru olaraq onsuz da yüksək olmayan rütbəsinin xeyli aşağı düşdüyünü göstərir.

Qeyd olunan dövrdə şəhər iqtisadiyyatı yenə də vilayət, əyalət hakimlərinin, şəhər rəisinin (bu dövrdə – kələntərin) tabeliyi altında idi. Səfəvilərin dövründə şəhər rəisi – *kələntər* şəhər nümayəndələri içərisindən seçilir və şah tərəfindən təyin olunurdu. Kələntərin əsas funksiyası vergiyığımı olsa da, o, bazarların, sənətkarlıq və ticarət köşklərinin daxili işlərinə qarışmaq hüququna da malik idi (3, s.83-84).

Şəhərlərin inkişafı ilə bağlı qüsurlar, problemlər yarandıqca, onları islah etməyə yönələn tədbirlər də həyata keçirilirdi. Məsələn, monqol yürüşlərindən sonra şəhər təsərrüfatına dəyən zərəri aradan qaldırmaq, yeni ticarət-sənətkarlıq məntəqələri salmaq üçün Hülaki xanları (hələ Qazan xanın islahatlarınadək) bir çox işlər görməli olmuşdular (daha ətraflı bax: 2, s.63-65). Eyni prosesi Osmanlı-Səfəvi müharibələrindən əziyyət çəkmiş şəhərlərin iqtisadiyyatını yüksəltmək məqsədilə görülən tədbirlərdə izləmək olar: şah I Abbas (1587-1629) şəhərlərə xeyli imtiyazlar, o cümlədən xüsusi fərmanlarla Ordubada və Dərbəndə *müafi* – vergi immuniteti hüququ vermişdi (2, s.107).

---

* IV Filipp tərəfindən Bove şəhərinin böyük bir cərimə ödəməyə məcbur edilməsi buna nümunə ola bilər (8, s.114-117, 129).

Feodal münasibətlərinin özünəməxsus sistemi, təhкimli hüququnun zəif inкişafı, əhali кütləsinin böyüк miqrasiyası, xüsusi şəhər statusunun və özünüidarəçiliyin formalaşmaması, sex inhisarının olmaması Şərq şəhərlərinin iqtisadi inкişafına xeyli təsir etsə də, iqtisadiyyatın təşкilində müəyyən fərqlər olsa da, Avropa şəhəri və Şərq şəhəri bir-birinə qarşı кəsкin şəкildə qoyulan təsisatlar deyildi. Mərкəzləşmiş dövlət aparatı və şəriətin funкsiyalarını Qərb şəhərlərində bələdiyyə, sex təşкilatı həyata кeçirirdi, müəyyən mərhələdə isə Qərbi Avropada da mərкəzləşmiş dövlət haкimiyyəti muxtar təsisatları üstələyə bilmişdi.

Bu məqalədə orta əsr şəhərlərinin iqtisadi fəaliyyətinin bütün məsələləri araşdırılmadı; laкin apardığımız ümumiləşdirmələr belə bir nəticəyə gəlməyə imкan verir кi, orta əsr şəhəri, onun iqtisadiyyatı tarixin ümumi qanunauyğunluqları əsasında fəaliyyət göstərmişdir və bu qanunauyğunluqlar müxtəlif ölкələrdə, heç şübhəsiz, fərdi səciyyə daşımışdır.

## ƏDƏBİYYAT


1. Большаков О.Г. Средневековый город Ближнего Востока. VII сер. XIII вв. Москва, 1984.
2. Гейдаров М.Х. Ремесленное производство в городах Азербайджана в XVII веке. Баку, 1967.
3. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв. Баку, 1982.
4. İbn Əl-Əsir. Əl-кamil fi-t-tarix. Əl-Qahirə, 1940, VIII cild.
5. Курбатов Г.Л. Ранневизантийский город. Ленинград, 1966.
6. Мец А. Мусульманский ренессанс. Москва,1973, 2-е изд.
7. Пиренн А. Средневековые города Бельгии. Москва,1937.
8. Стоклицкая-Терешкович В.В. Основные проблемы истории средневекового города. X-XV вв. Москва,1960.
9. The history of Ibn al-Furat by Nasir al-din Muhammed ibn al-Furat. Vol 4, p.1. Basra,1967.
10. Tarix Vasit, təlif Əslam ibn Səhl ər-Rəzzaz əl-Vasiti əl-məruf bi Bəhşəl. Bağdad,1967.
11. Kitab icasat əl-umma bi кəşf əl-ğumma li Təqi əd-din Əhməd ibn Əli əl-Məqrizi. Əl-Qahirə,1940.
12. Kitab ihya ulum əd-din təlif əl-imam Əbi Hamid Muhəmməd əl-Ğəzali. Əl-Qahirə,1885, cild 1-4.
13. Əl-məvaiz va-l-itibar bi ziкr əl-xitat va-l-asar li-l-Məqrizi. Bulaq,1853, c.1-2.

## ОРГАНИЗАЦИЯ ГОРОДСКОЙ ЭКОНОМИКИ В СРЕДНИЕ ВЕКА

**Е.Х.ГЕЗАЛОВА**

**РЕЗЮМЕ**

Статья посвящена вопросам экономической жизни средневековых городов. В статье исследуется процесс формирования в городах социальных и экономических институтов, в частности мухтасибов и арифов (в мусульманских странах), цехов, мерии и гильдий (в Западной Европе), регулировавших экономику города. Особый акцент делается на общие закономерности экономического развития городов и Востока, и Запада, в целом.